Deloitte.

# HÜQÜQ

## Kommersiya hüququ sahəsində xidmətlər

## Sabahı düşünərək

Qlobal miqyasda şirkətlər bir çox biznes problemləri ilə üzləşirlər. Buraya onların fəaliyyət göstərdikləri ölkələrdə yerli qanunvericilik orqanları tətbiq edilən getdikcə sərt xarakter alan qaydalar daxildir. Praktiki yanaşmaya malik olan təcrübəli məsləhətçi kimi, Deloitte şirkətlərə bu tələblərin yerinə yetirilməsində və kommersiya həlləri işləyib hazırlamaqda yardımçı olur. Deloitte aşağıdakı sahələrdə xidmətlər göstərir.

- Təchizat zəncirinin idarə edilməsi və məhsulların paylanma (distributor) şəbəkələrinin hüquqi və müqavilə çərçivəsi;
- Şirkətlərdə fəaliyyət strukturunun yenidən təşkili və kənar resursların cəlb edilməsi;
- Daşınmaz əmlak, o cümlədən satınalma, silinmə və portfelin idarə edilməsi;
- Əqli mülkiyyət hüquqları, habelə onların qeydiyyatı, qorunması və müdafiəsi;
- Ədalətsiz rəqabət və anti inhisar qanunvericiliyi sahəsində məsləhət xidmətləri;
- Müflisləşmə, ödəniş qabiliyyətinin olmaması və korporativ yenidən təşkil;
- Yerli qanunvericilik əsasında hesabatlılıq.

Deloitte müştərilərin ehtiyacları və fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək üçün geniş vaxt ayırır. Biz müxtəlif ölkələrdə kommersiya fəaliyyəti ilə bağlı geniş çeşidli hüquq xidmətləri təklif edirik. Bizim təcrübəmiz və qlobal naliyyətlərimiz bizə mürəkkəb hüquq qaydaları və problemlər ilə üzləşən şirkətlərə fərdi və müştəri tələblərinə uyğunlaşdırılmış xidmətlər göstərmək imkanı verir.

**Təchizat şəbəkəsinin idarə edilməsi və məhsulların paylanma (distributor) şəbəkələrinin hüquqi tənzimlənməsi və müqavilə bazası**

Təchizat şəbəkəsinin idarə edilməsi və məhsulların paylanma (distributor) şəbəkələrinin hüquqi tənzimlənməsi və müqavilə bazası şirkətlərin qlobal miqyasda problemsiz fəaliyyətinə yardımçı olmaq üçün çox vacib əhəmiyyət kəsb edir. Deloitte-un hüquq sahəsində mütəxəssisləri bütün əsas sənaye sahələri üzrə transsərhəd əməliyyatların dəstəklənməsində geniş təcrübəyə malikdir. Yanaşmamız uyğun, dəqiq ifadə olunmuş və qanunun tələblərinə cavab verən müqavilələrin hazırlanması və bağlanması vasitəsilə mübahisə və məhkəmə işlərinə yol verməməkdən ibarətdir.

***Maliyyə hüququ***

Maliyyə hüququ sahəsində göstərdiyimiz hüquq xidmətlərinə aşağıdakılar daxildir:

- Xarici investisiyalar, o cümlədən Azərbaycanda biznesin təşkili ilə bağlı məsələlərə dair məsləhətin verilməsi;
- Valyuta nəzarəti üzrə məsləhət xidmətləri;
- Bank/sığorta işinin hüquqi tənzimlənməsi barədə məsləhətin verilməsi;
- Aktivlərin sekuritizasiyası barədə məsləhətlərin verilməsi.

***Gömrük hüququ***

Hazırkı dünya gömrük sistemi xarici fəaliyyətin əsas tərkib hissələrindən biridir. Mövcud gömrük prosedurlarının müxtəlifliyi, gömrük sənədləşmələrinin mürəkkəbliyi, gömrük yoxlaması ilə bağlı tələblər gömrük işinin planlaşdırılmasına şərait yaradır və bu da müəssisələr tərəfindən vaxt və xərclərin səmərəli şəkildə istifadəsini təmin edir. Deloitte şirkətlərə aşağıdakı gömrük fəaliyyətləri ilə bağlı aşağıdakı xidmətləri təklif edir.

- Gömrük sənədlərinin o cümlədən idxal və ixrac bəyannamələrinin hazırlanmasına kömək və onların nəzərdən keçirilməsi, , gömrük rüsumlarının və vergilərin hesablanması;
- Potensial və cari inzibati cərimələrin təhlili və/və ya gömrük ödənişləri (idxal rüsumları, idxal ƏDV-si və/və ya aksiz vergiləri) üzrə araşdırmalar;
- İdxal/ixrac prosedurları ilə bağlı məsləhət;
- Gömrük yoxlaması.

Deloitte şirkətlərin kommersiya məqsədlərini analiz edərək onların müqavilələrdə, habelə, müxtəlif (məs, agentlik, dillerlik) alqı-satqı, təchizat və nəqliyyat müqavilələrində əks olunmasında habelə ixrac qaydalarına və gömrük qaydalarına aid ümumi şərtlərdə əks olunmasını təmin edir.

**Şirkətin funksiyalarının yenidən təşkili və xidmətlərin göstərilməsi üçün kənar resursların cəlb edilməsi**

Hazırkı qlobal iqtisadi şərait xidmətlərin alınması yolu ilə xərclərə qənaət etmək istəyən şirkətlər üçün yeni imkanlar açır. Şirkətin funksiyalarının aşağıdakı istiqamətlərdə mərkəzləşdirilməsi məqsədəmüvafiq praktika hesab olunur: istehsal miqyasının artması hesabına qənaət, şirkətin əmək qüvvəsi ucuz olan yerə köçürülməsi və ya xidmətlərin göstərilməsinə əlverişli qiymət təklif edən kənar şirkətlərin cəlb edilməsi və qismən kənar məsləhətçilərin cəlb edilməsi. Deloitte şirkətlərə bir sıra xidmətlərin göstərilməsi ilə bağlı köməklik göstərir və texnoloji infrastruktur və dəstəyin verilməsini, biznes proseslərinin kənar resurslar tərəfindən icra edilməsini, istehsal və telekommunikasiya sahələrini əhatə edir.

Bizim yanaşmamız ilk növbədə şirkətin kommersiya məqsədlərinin həyata keçirilməsinə yönəlmişdir. Biz şirkətlərə bugünkü bazar şəraitində rəqabəti qoruyub saxlamaq üçün son dərəcə vacib olan sərbəst iş əlaqələrini qurmağa yardımçı oluruq. Şirkətlərə onların fəaliyyət dövrlərinin istənilən mərhələsində dəstək verməyə hazırıq:

- Yeni müqavilələr üzrə danışıqların aparılması;
- Cari müqavilələrinin yenidən qiymətləndirilməsi və bağlanması

***Daşınmaz əmlak, o cümlədən satınalma, silinmə və portfelin idarə edilməsi***

Qlobal olaraq daşınmaz əmlak bazarına qlobal maliyyə böhranı və zəif bərpa səviyyəsi öz təsirini göstərməkdədir. Bu, sürətlə dəyişən qanunvericilik mühitinin təsirindən daha da güclənməkdədir. Bu mühitin uğurla idarə edilməsi üçün şirkətlər üçün biznes strategiyasını anlayan və kommersiya məqsədlərinə nail olmaq üçün praktiki və uyğun məsləhətlər verə bilən təcrübəli hüquq məsləhətçisinin olması zərurətə çevrilir. Deloitte şirkətlərə daşınmaz əmlak sektorunda biznes fəaliyyəti ilə bağlı hüquqi nəticələr, habelə daşınmaz əmlakla bağlı satınalmalar və maliyyə yoxlamaları, müqavilələrin müzakirəsi və aidiyyəti kommersiya məsələləri barədə məsləhət xidmətləri təmin edir. Biz, həmçinin, ticarət mərkəzlərindən, ofis binalarından kommersiya məqsədləri ilə istifadə edilməsi ilə bağlı hüquqi xidmətlər göstəririk.

Deloitte strateji biznes məqsədlərini nəzərə alır və müxtəlif istiqamətlər üzrə praktiki təlimatlar təklif edir.

***Əqli mülkiyyət hüquqları, habelə onların qeydiyyatı, qorunması və müdafiəsi***

Qloballaşma, davamlı olaraq dəyişən hüquqi tənzimləmə qaydaları və texnoloji yeniliklər biznes əməliyyatlarının mürəkkəbliyini artırmışdır. Bunun nəticəsi olaraq, Əqli mülkiyyət hüququ (ƏMH) ilə bağlı hüquq və qanunvericilik tələblərinin yerinə yetirilməsi sahəsində risklər əvvəlkindən daha ciddi şəkildə idarə edilməlidir. Deloitte şirkətlərə ƏMH ilə bağlı bütün məsələlərin, xüsusilə də ticarət nişanlarının qeydiyyatı, lisenziya müqavilələrinin hazırlanması, dövlət orqanlarında

təmsil olunma kimi məsələlərin həll edilməsində yardımçı olur. Bundan başqa, Deloitte ticarət nişanlarının və digər ƏMH qorunması ilə bağlı xidmətlər göstərir. Deloitte qlobal miqyasda fəaliyyət göstərməklə yerli qanunvericilik sahəsində dərin və geniş biliyə, habelə şirkətlərə xarici ölkələrin qanunvericilik tələbləri ilə bağlı hüquq məsləhətinin verilməsi bacarıqlarına malikdir.

***Haqsız rəqabət və antiinhisar qanunvericiliyi ilə bağlı xidmətlər***

Deloitte kommersiya fəaliyyəti ilə bağlı məhdudiyyətləri, haqsız rəqabət və antiinhisar qanunvericiliyi sahəsində nəzarəti həyata keçirən səlahiyyətli orqanların apardığı yoxlamalar çərçivəsində şirkətləri və yüksək səviyyəli rəhbərləri təmsil edir. Deloitte şirkətləri riskin praktiki idarə edilməsi strategiyaları, qanunvericilik tələblərinə əməletmə qaydaları, böhranın idarə edilməsi və məhkəmə prosesinin təsirinin qiymətləndirilməsi üzrə təlimatlarla təmin edir. Deloitte qlobal əhatə dairəsi və geniş xarici təcrübəsi şirkətə beynəlxalq ticarət məsələlərinə, habelə kartel və dövlət təşkilatları tərəfindən intizam araşdırmaları ilə bağlı məsələlərə dair məsləhət vermək imkanı yaradır.

***Vergi ilə bağlı mübahisələr***

Şirkətlər məhkəmə orqanları və inzibati qurumlar tərəfindən məhkəmə prosesinə cəlb edilə bilərlər. Deloitte aşağıdakı xidmətləri təklif etməklə vergi ilə bağlı mübahisələrin həllinə köməklik göstərə bilərlər:

- Vergi mübahisələri ilə bağlı hüquq məsləhəti;
- İnzibati və məhkəmə proseslərində müştəri maraqlarının təmsil edilməsi;

Deloitte öz xidmətlərinə görə seçilir. Bizim yanaşmamız təcrübəli biznes məsləhətçiləri ilə hüquq sahəsində dərin təcrübəni özündə birləşdirir. Qlobal xidmət dairəmizi, yerli qanunverici orqanlarla iş tarixçəmizi və qərarların verilməsini çətinləşdirən mədəniyyət və prosedur müxtəlifliyi barədə geniş anlayışımızı nəzərə alaraq, biz xarici ölkələrdə şirkətlərə məhkəmə prosesləri ilə bağlı dəstək göstərmək üçün ixtisaslaşmışıq.

***Müflisləşmə, ödəniş qabiliyyətinin olmaması və korporativ yenidənqurma***

Qlobal maliyyə böhranı bir sıra müəssisələri qeyri-stabil vəziyyətə salmışdır. Şirkətlər müxtəlif seçimlərlə mübarizə apararkən Deloitte-un Hüquq departamenti onlara bərpa olunma üçün müflisləşmə prosesindən kənar restrukturizasiya, strukturlaşdırılmış satışın yerinə yetirilməsi və müflisləşmə ilə bağlı hüquq xidmətlərinin göstərilməsi kimi seçimlər təklif etməklə yardımçı ola bilər. Biz əmlakı siyahıya alınmış müəssisələrlə, eləcə də potensial alıcılarla, səhmdarlarla və direktorlarla, kreditorlarla və müflisləşməni tənzimləyən şəxslərlə işləyirik.

Deloitte-un Hüquq departamentinin bu sahədəki təcrübəsi bankirlər, hüquqşünaslar, məhkəmələr, kredit sığortaçıları və dövlət qurumları kimi üçüncü tərəflərlə birgə işdən əldə olunan uzun illik təcrübəni özündə əks etdirir. Deloitte-un Hüquq departamenti müxtəlif fikirlərə əsaslanan təlimatların təmin edilməsi üçün dünya üzrə maliyyə, vergi və ya əmək hüququ sahəsində xüsusi bacarıqlara malik olan əməkdaşlarla birgə işləyir.

***Yerli qanunvericilik və idarəetmə tələblərinə riayət etmə***

Hazırda şirkətlər çoxlu sayda çətin milli və beynəlxalq qanun və qaydalara əməl etməli, habelə qanunvericiliklə bağlı məsələlərin yerinə yetirilməsini və qarşısının alınmasını təmin etmək üçün effektiv biznes proseslərinə malik olmalıdırlar. Deloitte-un Hüquq departamenti şirkətlərə öz fəaliyyət sahələrinə və əməliyyat bazalarına, o cümlədən aşağıdakılara uyğun yerli qanunvericilik və idarəetmə öhdəlikləri ilə bağlı təlimatlar təqdim edir:

- Ticarət konvensiyaları
- Vergi və maliyyə qaydaları
- Əqli mülkiyyətlə bağlı məhdudiyyətlər
- Ətraf mühitlə bağlı qaydalar.

Deloitte-un hüquq departamenti müəssisələrin fərdi tələbləri və əməliyyatla bağlı məsələləri barədə məlumat əldə etmək üçün müəyyən vaxt sərf edir. Biz kommersiya sahəsində geniş

biznes həlləri bazasını və geniş qlobal xidmət dairəmizi təklif edirik. Təcrübəmiz bizə mürəkkəb hüquqi qaydalar və problemlər ilə üzləşən şirkətlərə əlaqəli praktiki həllər təqdim etmək imkanı verir.


Deloitte & Touche MMC

Nizami küç 96, Landmark III

8-ci mərtəbə, Bakı AZ 1010, Azərbaycan

Tel:+994 (12) 404 12 10

Faks:+994 (12) 404 12 11

www.deloitte.az







**Nuran Kərimov**
Partnyor
nkerimov@deloitte.az

**Vüqar Məmmədov**
Hüquq üzrə Baş Menecer
vmammadov@deloitte.az



Deloitte adı Böyük Britaniyanın qanunvericiliyi əsasında qeydiyyatdan keçərək zəmanətlə məhdudlaşdırılmış Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan və ayrı-ayrılıqda hər biri müstəqil hüquqi şəxs olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə aid ola bilər. Deloitte-un Hüquq praktikası dedikdə Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan və hüquq xidmətləri göstərən üzv şirkətlərin və törəmə müəssisələrin hüquq praktikası nəzərdə tutulur. Deloitte Touche Tohmatsu Limited və ona üzv şirkətlərin hüquqi strukturu barədə ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun. Deloitte MDB-nin hüquqi strukturu barədə əlavə məlumat üçün www.deloitte.com/az/about səhifəsinə daxil olun.


Deloitte müxtəlif sənaye sahələrində çalışan dövlət müəssisələrinə və özəl müştərilərə audit, vergi, konsaltinq və maliyyə məsləhəti xidmətləri göstərir. Dünya üzrə 150-dən çox ölkədə əlaqəli üzv şirkətlər şəbəkəsi ilə Deloitte beynəlxalq səviyyəli bacarıqları və yerli layihələrdə geniş təcrübəsi ilə dünyanın istənilən məkanında fəaliyyət göstərən müştərilərinə kömək edir. Deloitte-un regiondakı 200,000 peşəkar mütəxəssisi xidmətlərin göstərilməsində mükəmməllik nümunəsi olmağa çalışır.

Deloitte-un mütəxəssislərini xüsusi əməkdaşlıq mədəniyyəti bir-birinə bağlayır və bu da mədəniyyət müxtəlifliyi ilə birlikdə yüksək mənəvi dəyərlərin və heyətin iş əhval ruhiyyəsinin yüksəldilməsinə yönəlməklə bizim göstərdiyimiz xidmətlərin dəyərini müştərilərimiz və bazar üçün artırır. Deloitte öz işçiləri üçün təlimlərin keçirilməsinə, praktiki təcrübənin qazanılmasına və karyera irəliləyişləri imkanlarının təmin edilməsinə böyük diqqət ayırır. Deloitte-un mütəxəssisləri korporativ məsuliyyətin gücləndirilməsinə, ictimai etibarın qazanılmasına və işlədikləri cəmiyyətdə əlverişli mühitin yaradılmasına çalışırlar.


**© 2014 Deloitte & Touche MMC. Bütün hüquqlar qorunub.**